1941 - 1945

# İkinci Dünya Müharibəsində Azərbaycan xalqının rolu

***Miqyasına və insan tələfatı sayına görə tarixdə misli görünməmiş İkinci Dünya Müharibəsində şanlı qələbə keçmiş SSRİ ərazisində yaşayan xalqların birgə səyi, birgə rəşadəti sayəsində qazanılmışdı.***

***Müharibə dünyanın əksər dövlətlərini əhatə etmiş, döyüş cəbhələrində milyonlarla insan qurban getmişdi. Bu müharibə 1939-cu il sentyabrın 1-də nasist Almaniyasının Polşa üzərinə hücumu ilə başlanmış, 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatmışdı. Müharibədə dünyanın 61 ölkəsindən 120 milyon adam iştirak etmiş, 60 milyona yaxın insan həlak olmuşdu.***

1941-ci il iyunun 22-də keçmiş SSRİ ərazisinə soxulmuş Hitler ordusu bir neçə aydan sonra artıq Moskva və Leninqrad (Sankt-Peterburq) şəhərlərinə yaxınlaşmışdı. SSRİ-nin tərkibində olan Azərbaycan ərazisində müharibə getməsə də, respublikamız qələbəyə böyük töhfələr verdi. Müharibə illərində Azərbaycanda 87 qırıcı təyyarə yığıldı və 1124 özünümüdafiə batalyonu təşkil olundu. 600 mindən çox vətəndaşımız səfərbərliyə alınaraq birbaşa ön cəbhəyə yola salındı. Onların yarıdan çoxu müharibədə həlak oldu.

Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci diviziyalar Simferopolun, Odessanın və digər şəhərlərin, Polşanın, Çexoslovakiyanın və Yuqoslaviyanın azad olunmasında fəal iştirak etmişdir. 416-cı diviziya isə Qafqazdan Berlinə qədər böyük və şərəfli bir döyüş yolu keçmiş, Berlinin süquta yetirilməsində xüsusi qəhrəmanlıq göstərmişdir.

Müharibə illərində 100-dən çox Azərbaycan vətəndaşı SSRİ-nin ən ali mükafatına - Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. 30 nəfər "Şərəf" ordeninin hər üç dərəcəsi ilə, 170 min nəfər isə müxtəlif orden və medallarla təltif olunmuşdur.

Azərbaycan iqtisadiyyatı hərbi relslər üzərinə keçirilmişdi. Yüngül və yeyinti sənayesi sahələri hərbiləşdirilmiş, az vaxt ərzində Bakı şəhəri döyüşən ordunun cəbbəxanasına çevrilmişdi.

Azərbaycan neftçiləri isə Böyük Vətən Müharibəsində əvəzsiz bir rol oynadılar. Cəbhəni, döyüş tank və təyyarələrini yanacaqla əsasən Azərbaycan neftçiləri təmin edirdi. Bakıda 38 növ sürtkü yağı, 9 adda təyyarə benzini və 8 növ dizel yanacağı istehsal edilirdi.

1941-ci ildə Azərbaycanın neft hasilatı tarixində rekord miqdarda - 23,5 milyon ton neft istehsal olunmuşdu. Bu, bütün SSRİ-də istehsal olunan neftin 71,4 faizi demək idi. Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları istehsal etmişdi. Sovet ordusunun təyyarə və tankları, demək olar ki, Bakı nefti ilə işləyirdi. Qətiyyətlə demək olar ki, Bakı nefti faşizm üzərində qələbənin əsas amillərindən biri olmuşdur. Müharibədə hər beş təyyarədən dördü, hər beş tankdan dördü, hər beş avtomobildən dördü Bakıdan göndərilən yanacaqla işləyirdi.

Müharibə illərində Bakıda 130-dan çox növdə silah, o cümlədən alman ordusunun qorxulu kabusu olan "Katyuşa" raketi, "Şpakin" pulemyotu və s. döyüş sursatları istehsal edilir, "YAK-3" qırıcı təyyarəsi yığılırdı.

Respublikamızda fəhlə və qulluqçular üçün iş günü 11-12 saata qaldırılmış, məzuniyyətlər ləğv olunmuşdu. Ərzaq və çox işlənən sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq edilmişdi. Müəssisələrdə və kolxozlarda işləyənlərin təxminən 70 faizi qadınlar idi. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdılar.

1941-1943-cü illərdə Azərbaycan vətəndaşları Müdafiə Fonduna 15 kiloqram qızıl, 952 kiloqram gümüş vermiş, vəsaiti cəbhəyə xərcləmək üçün 311 milyon manatlıq istiqraz alamışdılar. Döyüşən orduya 1,6 milyon ədəd müxtəlif əşya, 125 vaqon isti paltar göndərmişdilər.

Zəngin təbii sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycanı işğal etmək Hitler Almaniyasının əsas planlarına daxil idi. Hitlerin Qafqaza hücum planında Bakının tutulmasının dəqiq vaxtı da göstərilmişdi. Qafqaza xüsusi maraq göstərən ABŞ və Böyük Britaniya da Azərbaycanı öz nüfuz dairələrinə keçirmək niyyətində idi

SSRİ-nin dağılmasından sonra da Qələbə günü bütün MDB və bir çox qərb ölkələrində qeyd olunur. Azərbaycan isə özünün qəhrəmanlarını unutmur, hər il 9 may tarixini faşizm üzərində qələbəmizin ildönümü kimi böyük iftixar hissi ilə qeyd edir.

**"Qəbələ".**

***Son dövrlərdə dünya arenasında nüfuz qazanan doğma respublikamız bir sıra beynəlxalq miqyaslı yarışların və tədbirlərin keçirildiyi məkana çevrilmişdir.***

***12-22 may 2017-ci il tarixdə keçiriləcək IV İslam Həmrəyliyi Oyunları da beynəlxalq əhəmiyyətli tədbirlərdən biridir. Respublikamızda bu tədbirin keçirilməsinə ciddi hazırlıq gedir.***



# Təsviri sənət müsabiqəsi

Təhsil Nazirliyinin tədbirlər planına uyğun olaraq respublikamızın ümumtəhsil məktəblərində təhsil alan 6-17 yaşlı uşaq və gənclərin iştirakı ilə keçirilən IV İslam Həmrəyliyi Oyunlarına həsr olunmuş respublika təsviri sənət müsabiqəsi də böyük əhəmiyyət kəsb edir.

Müsabiqənin keçirilməsində məqsəd IV İslam Həmrəyliyi Oyunlarını məktəblilər arasında təbliğ etmək, şagirdlərdə tolerantlıq, islam xalqları arasında sülh, əməkdaşlıq, dostluq əmin-amanlıq hisslərini aşılamaq, islam mədəniyyəti, incəsənəti və tarixi barədə məlumat vermək, eyni zamanda təsviri sənət üzrə istedadlı şagirdləri aşkar etmək, onların arasında beynəlxalq təsviri sənət müsabiqələrində iştirak edəcək məktəbliləri seçməkdən ibarətdir.

Aprelin 26-da Qəbələ şəhər 5 nömrəli tam orta məktəbdə V zona üzrə müsabiqənin I mərhələsi keçirildi.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Şamaxı, Göyçay, Ağdaş və Ağsu rayonlarının məktəbliləri, onların müəllimləri və valideynləri tədbirdə iştirak edirdilər. Zona üzrə təşkil olunan bu mərhələdə IV islam Həmrəyliyi Oyunlarına həsr olunmuş 91 rəsm nümayiş etdirilirdi. Təqdim olunan rəsmlər Estetik tərbiyə üzrə Respublika Tədris-metodik Mərkəzinin münsiflər heyəti tərəfindən qiymətləndirilmişdir.

Rəsm əsərləri aşağıdakı mövzuları əhatə edirdi:

1. IV İslam Həmrəyliyi Oyunlarının Proqramına daxil olan idman növləri.
2. IV İslam Həmrəyliyi Oyunlarının Proqramına daxil olan idman növlərini əks etdirən loqolar.
3. IV İslam Həmrəyliyi Oyunlarında iştirak edəcək dövlətlər və onların atributları.
4. IV İslam Həmrəyliyi Oyunlarının atributları.
5. Dünya xəritəsində İslam dövlətləri.

Bu şərtləri nəzərə alan münsiflər heyətinin rəyinə əsasən bütün nominasiyalaradan hər yaş qrupu üzrə ilk üç yerin qalibi respublika mərhələsində iştirak etmək hüququ qazanmışdır.

Qiymətləndirmə zamanı mövzunun əhatə olunması, yaradıcı təxəyyülün ifadəsi, məzmununa uyğun kompozisiyanın qurulması, təsviri sənətdə mövcud olan üslubların tətbiqi əsas meyar kimi götürülmüşdür.

Qaliblər Estetik tərbiyə üzrə Respublika Tədris-metodik Mərkəzinin diplomları ilə təltif olunmuşlar.

**✍ Rəna SƏMƏDOVA, məktəbin müəllimi.**
**Səhrab UMUYEV.**

# Qəbələ 2017-ci ilin birinci rübündə

***Yola saldığımız 2017-ci ilin birinci rübü ərzində ölkəmizdə sosial-iqtisadi inkişaf davam etmiş, Azərbaycan regionda lider dövlət olaraq öz mövqeyini bir qədər də möhkəmləndirilmişdir***

***Ötən müddət ərzində Qəbələ rayonunda iqtisadiyyatın əsasını təşkil edən sənayenin və aqrar sektorun inkişaf etdirilməsi istiqamətində xeyli işlər görülmüşdür.***

**Demoqrafiq vəziyyət**

Rayonun ərazisi 1548 kv km-dir. 1 aprel 2017-ci il tarixə əhalinin sayı 104611 nəfər, hər kv km-da sıxlığı 67,3 nəfər olmuşdur.

Rayonda 1 şəhər, 3 qəsəbə, 60 kənd yaşayış məntəqəsi vardır. Əhalinin 13913 nəfəri yaxud 13,3 faizi şəhər, 21864 nəfəri yaxud 20,9 faizi qəsəbə, qalan 68834 nəfəri yaxud 65.8 faizi kənd yerlərində yaşayır.

Rayonda 1 şəhər, 3 qəsəbə, 60 kənd icra nümayəndəliyi, 29 bələdiyyə fəaliyyət göstərir.

2017-ci ilin birinci rübü ərzində rayonda 420 körpə doğulmuş, 183 nəfər vəfat edən qeydə alınmışdır. Vəfat edənlərin 2 nəfəri 1 yaşa qədər uşaqlar olmuşdur.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin birinci rübü ərzində əhalinin hər min nəfəri üzrə doğulanların sayı 4,2 nəfərdən 4,0 nəfərə qədər azalmış, ölənlərin say isə 1,2-dən 1,7-yə qədər artmışdır.

Rüb ərzində rayonda 122 nikah və 22 boşanma qeydə alınmış, keçən ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 3 hal, boşananların sayı isə 1 hal artmışdır.

**İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə rayonda məhsul buraxılışı**

Cari ilin birinci rübü ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 33152 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da keçən ilin həmin dövründən 3684 min manat, yaxud 12,5 faiz çoxdur.

İlin birinci rübündə keçən ilə nisbətən ümumi məhsul buraxılışı kənd təsərrüfatrında 304 min manat, yaxud 3,0 faiz, nəqliyyatda 40,0 min manat, yaxud 3,9 faiz, ticarətdə 733 min manat, yaxud 9,8 faiz, sənayedə 2840 min manat, yaxud 49,8 faiz, rabitədə 13 min manat, yaxud 5,3 faiz artmış, tikintidə isə 246 min manat və ya 4,8 faiz azalmışdır.

Rüb ərzində adambaşına düşən ümumi məhsul buraxılışı keçən ilin müvafiq dövrü ilə müqayisədə 32 manat artaraq 317 manata çatmışdır.

**Kənd təsərrüfatı**

Rayonda keçən ilin payızında 21047 hektar sahədə taxıl əkilmişdir.

Mart ayının üçüncü ongünlüyündə yazlıq bitkilər əkininə başlanmış və aprel ayının 1-i vəziyyətinə 100 hektar kartof, 55 hektar tərəvəz, 12 hektar yonca, 10 hektar birillik ot, 3 hektar qarğıdalı, 831 hektar dənli və paxlalı bitkilər əkilmişdir. Başqa sözlə yazlıq bitkilər keçən ilin həmin dövrünə nisbətən 656 hektar çoxdur.

Keçən ilin müvafiq dövrünə nisbətən iri buynuzlu mal- qaranın sayı 1422 baş, inək və camışların sayı 1008 baş azalmış, qoyun və keçilərin sayı 3900 baş, donuzların sayı isə 36 baş artmışdır.

**(Ardı gələn sayımızda).**